StrikePlagiarism.com

ORIGINALITY IS A VALUE

# ANTİPLAGİAT SİSTEMİNİN OXŞARLIQ HESABATININ TƏFSİRİ ÜZRƏ TƏLİMAT


Plagiat.pl, Baku, "Black Pearl Plaza"
Ə.Rəcəbli küçəsi 186

tel. +994 12 480 06 79
tel. + 994 12 480 15 68

www.strikeplagiarism.com
mail: officebaku@strikeplagiarism.com

## Oxşarlıq hesabatı

✓ Yoxlanılan mətnin müstəqilliyini qiymətləndirməyə kömək edir,

✓ Alınmaların sayını və onların mənbəyini göstərir

## I. Oxşarlıq Hesabatının Funksiyaları

- Təhlil olunan sənəddə alınmaların faizini müəyyən edən Oxşarlıq Əmsalları yaradır;
- Müqayisəli məlumatlar bazasında aşkarlanan mətnlərlə oxşar fraqmentləri göstərir;
- Sənəddə aşkarlanan 10 ən uzun oxşarlıqları ən uzun fraqment siyahısında göstərir;
- Sənəddə aşkarlanan oxşarlıqları mənbələrə və müqayisəli məlumatlar bazalarına uyğun olaraq yerləşdirir (Universitetin Məlumatlar Bazası, Məlumatlar Bazalarının Mübadilə Proqramında toplanan mətnlərin Məlumatlar Bazası, RefBooks Məlumatlar Bazası, Hüquqi Aktların Məlumatlar Bazası və Qlobal İnternet mənbələri);
- Seçilmiş alınmaların mənbəsini ayırmağa imkan yaradır (göy rənglə göstərir);
- Oxşarlıq dərəcəsini oxşarlıq mənbəyi ilə müəyyən edir:
    - Hər iki mətn üçün ümumi sözlərin sayı,
    - Təhlil olunan mətndə təqdim olunan fraqmentlərin sayı,
    - Təhlil olunan sənədin mənbə ilə oxşarlığının faiz dərəcəsi.
- Təhlili asanlaşdıraraq sənəd üzrə hərəkət etməyə imkan yaradır.

## II. Oxşarlıq Əmsalları

✓ Digər mətnlərdə aşkarlanan oxşar fraqmentlərin faiz dərəcəsini müəyyən edir.

✓ Digər mətnlərdə sözlərin sayını təhlil olunan sənəddə ümumi söz sayının nisbətini ifadə edir.

Plagiat.pl, Baku, "Black Pearl Plaza"
Ə.Rəcəbli küçəsi 186
tel. +994 12 480 06 79
tel. + 994 12 480 15 68
www.strikeplagiarism.com
mail: officebaku@strikeplagiarism.com




**Oxşarlıq Əmsalı 1 (OƏ1)** sənədlərin hansı hissəsində Universitetin Məlumatlar Bazasında, Məlumatlar Bazalarının Mübadilə Proqramının Məlumatlar Bazasında, RefBooks Məlumatlar Bazasında və İnternet mənbələrinin Məlumatlar Bazasında (Hüquqi Aklar Bazası istisna olmaqla) 5 və ya daha çox sözdən ibarət ifadənin olduğunu müəyyən edir. **Oxşarlıq Əmsalı 1,** əsasən sənədlərin müəllifinin dil müstəqilliyini öyrənmək üçün istifadə olunur.

**Oxşarlıq Əmsalı 2 (OƏ2)** sənədlərin hansı hissəsində yuxarıda göstərilən məlumatlar bazalarında (Hüquqi Aklar Bazası istisna olmaqla) 25 söz və ya daha çox sözdən ibarət ifadənin olduğunu müəyyən edir. Aşkarlanan ifadələrin uzunluğuna görə **Oxşarlıq Əmsalı 2** icazəsiz alınmaların aşkarlanması üçün ən yaxşı vasitədir.

**Sitatların əmsalı**
Sitatların əmsal dəyəri təhlil edilmiş sənədin hansı hissəsinin sitata daxil olduğunu göstərir (" " işarəsi ilə başlanılır və bitirilir).

Nəzərə almaq lazımdır ki, sistem yalnız düzgün dırnaq işarəsinə alınmış sitatları nəzərə alacaq. Sistem sitatların qanuni şəkildə istifadə edilməsini təhlil etmir. Bunun üçün, antiplagiat yoxlanışları zamanı sitatlar buraxılmır. Sitatların əmsalı köməkçi vasitədir və onun hesablanmasının mexaniki xüsusiyyəti Hesabatın təhlili zamanı nəzərə alınmalıdır.

## III. Oxşarlıqların aktiv siyahısı

Oxşarlıqların aktiv siyahısı mətndə alınmaların əsas mənbələrini tez bir zamanda təhlil etməyə və aşkarlanan seçilmiş fraqmentlər vasitəsi ilə rahat naviqasiya yaratmağa imkanı verir.

**Oxşarlıqların aktiv siyahısı**

Siyahıya keçin və xüsusilə OƏ 2 aşan fraqmentləri təhlil edin (qalın şriftlə qeyd edilmişdir). "Mətndə göstərin" keçidini istifadə edin və onların sənəddə mövcud olan qısa ifadələr (təsadüfi oxşarlıqlar), digərlərinin yanında olan çoxsaylı qısa ifadələr (mozaik oxşarlıqlar) və ya mənbəsi olmayan geniş fraqmentlər (birbaşa plagiat) olduğuna diqqət yetirin.

+ 10 ən uzun fraqmentlər (100,00 %)
+ RefBooks Məlumatlar Bazasından (0,00 %)
+ Daxili Məlumatlar Bazasından (0,00 %)
+ Məlumatlar Bazalarının mübadilə proqramından (100,00 %)
+ İnternetdən (0,00 %)

Siyahıda müəyyən bir yazının faiz dərəcəsi təhlil olunan mətnin hansı hissəsinin qeyd olunan mənbə ilə eyni olduğunu göstərir.

# IV. Mətn manipulyasiyaları

Mətndə edilən bəzi dəyişikliklər təhlilin nəticələrini dəyişə bilər. Mətndə gözə görünməyən dəyişikliklər yoxlamanın nəticəsinə təsir göstərir. Sistem müəyyən texniki parametrlərə, beləliklə məhdudiyyətlərə malikdir və bu da onlardan yan keçmək istəyinə səbəb ola bilər.

**Mətnin mümkün manipulyasiya cəhdlərinin siyahısı**

Bu bölmədə yoxlamanın nəticələrini dəyişdirmək üçün mətndəki manipulyasiyalara dair məlumatları əldə edəcəksiniz. İşi çap variantda və ya elektron faylda qiymətləndirən şəxs üçün manipulyasiyalar görünməyə bilər (bilərəkdən səhvlər edilə bilər). Dəyişikliklərin qəsdən olub olmadığını da qiymətləndirmək lazımdır.

| | | |
|---|---|---|
| Hərf dəyişiklikləri | 63 | mətndə göstərin |
| İntervallar | 8 | mətndə göstərin |
| Mikroboşluqlar | 12 | mətndə göstərin |
| Ağ işarələr | 267 | mətndə göstərin |

Mümkün manipulyasiya barədə xəbərdarlığı göstərən sənədlər siyahıda qırmızı nida ilə göstərilir. Xəbərdarlıq barədə statistik məlumatlar Oxşarlıq Hesabatına daxildir.

- Digər əlifbalardan işarələr (məsələn, latın olmayan)

Digər əlifbalardan olan işarələr sənədin dilinə xas olan əlifbanın hərflərinə bənzəyə bilər. Hər bir dilin öz kodu mövccuddur və bir dildən digərinə işarə əvəz edərkən bütün sözün kodu dəyişir. Sistem dəyişdirilmiş kodun mövcudluğunu aşkar edir, mətni düzəldir və oxşarlıqları axtarmağa başlayır, başa çatdıqdan sonra isə manipulyasiya oxşarlıq hesabatına əlavə olunur.

- İntervallar

Hərflər arasında artırılan məsafələr təhlil olunan sənəddə sözləri birləşdirərək boşluq kimi görünə bilər.

Sistem sözlərin birləşməsini axtarır, sözlərin birləşməsini dəyişdikdə və ya pozduqda, sistem oxşarlıqları tapmaqda çətinlik çəkə bilər.

- Mikroboşluqlar

Həfrlər və ya sözlər arasında sıfır uzunluğu olan boşluqlar təhlil edilən mətndə sözlərin səhv ayrılmasına səbəb ola bilər.

- Ağ işarələr

Ağ rəngli işarələr boşluqları əvəz edərək təhlil olunan sənəddə sözləri birləşdirə bilər. Hesabatda ağ işarələrin rəngi onları görünən etmək üçün tünd qırmızı rəngə dəyişdirilmişdir.




- Parafraz

Yalnış parafraz, sözlərin yerinin dəyişdirilməsi, sinonimlərin əlavə edilməsi, mənbəni gizlətmək cəhdi sistemdən yan keçmək cəhdi kimi qiymətləndirilə bilər. Sistem bu cür ifadələri vurğulayır və kursoru bu ifadənin üzərinə gətirdikdə, sistem ifadənin orijinalda necə göründüyünü göstərir.

Parafraz funksiyası fraqmentin ən azı 5 sözünün aşkarlanan oxşarlıqlarla eyni olduğu zaman, qalan mətnin isə 3 sözdən çox hissəsi dəyişmədikdə, çalışacaq. Beləliklə:

- Ən azı iki hissədən birində 5 və ya daha çox söz mövcuddursa, fraqmentin iki hissəsinin arasına 3 sözə qədər əlavə olunacaq.
- Ən azı iki hissədən birində 5 və ya daha çox söz mövcuddursa, fraqmentin ortasından 3 sözə qədər silinmişdir.
- 5 və ya daha çox söz eyni ardıcıllığı saxlayırsa, 3 sözə qədər dəyişdirilib.


3 Авторское право
Авторским правом регулируются отношения, возникающие в связи с созданием и использованием произведений науки, литературы и искусства. В основе авторского права лежит понятие «произведения» , означающее оригинальный результат творческой деятельности, существующий в какой-либо объективной форме. “Именно эта объективная форма выражения является предметом охраны в авторском праве. Авторское право не распространяется на идеи, методы, процессы, системы, способы, концепции, принципы, открытия, факты” .

Смежные права
качестве подписавшихся госуда
Причины, по которым государства принимают законы и присоединяются в качестве государств к региональным или международным договорам, регулирующим права авторской собственности, обычно обосновываются стремлением:
1. посредством предоставления охраны создать побудительный мотив для проявления созидательных и различных усилий мышления;
2. дать официальное признание таким создателям;
3. вознаградить творческую деятельность;
4. содействовать росту как отечественной промышленности или культуры, так и международной торговли, посредством договоров, предоставляющих многостороннюю охрану.

Hesabat diqqətlə təhlil olunmalıdır ki, xəbərdarlıqların mətnin əsaslandırılmış dəyişikliklər (sistemin hiperhəssaslığı) və ya qəsdən edilən manipulyasiyalar kimi olub-olmaması müəyyən olunsun.

## V. Oxşarlıq Hesabatının Məzmunu

Oxşar təyin olunan fraqmentlər Hesabatda oxşarlıqların mənbələrindən asılı olaraq fərqli rənglərlə işarələnir. Oxşarlıq Hesabatının məzmununda göstərilən rənglər aşağıdakıları bildirir:

- **yaşıl** – internet mənbələrdən olan fraqmentlər
- **qırmızı** – Yerli Məlumatlar Bazasından və Məlumatlar Bazalarının Mübadilə Proqramından olan fraqmentlər

*Məlumatlar Bazalarının Mübadilə Proqramı proqramda iştirak edən digər müəssisələrin məlumatlar bazalarının sənədlərinə giriş əldə etməyə imkan yaradan Antiplagiat sisteminin opsiyasıdır, bu da öz sırasında, antiplagiat təhlilinin mənbələrini genişləndirməyə imkan verir.*

*Məlumatlar Bazalarının Mübadilə Proqramında iştirak lisenziya müqaviləsindən irəli gəlir. Proqrama qoşulmaq istədiyiniz halda müqaviləyə əlaqə hazırlamaq və əlavə məlumat əldə etmək üçün Müştəri Xidməti şöbəsi ilə əlaqə saxlamağınız xahiş olunur.*

- **narıncı** – RefBooks Məlumatlar Bazasının resurslarından fraqmentlər

*RefBooks - Plagiat.pl tərəfindən yaradılan və Antiplagiat sistemi tərəfindən həyata keçirilən yoxlamalar üçün əsas təşkil edən elmin bütün sahələrindən olan nəşrlər və mətnlərin məlumat bazasıdır.*

*Hal-hazırda, burada əsasən polyak və ingilis dillərində müəllif hüquqları ilə qorunan təxminən 4 milyon yazı mövcuddur.*

*Wolters Kluwer SA, Termedia və Paperity.org kimi nəşriyyat evləri ilə əməkdaşlıq sayəsində həm ənənəvi modeldə, həm açıq lisenziyalar əsasında (açıq giriş) məlumatlar bazasına ən son kitablar, şərhlər və elmi məqalələr və arxiv.org məlumatlar bazası daxildir. Bura, həmçinin, bir çox kiçik nəşriyyat evləri və müəlliflərin mətn kolleksiyaları daxildir.*

- **Fonu mavi** – Hüquqi Aktlar Bazasından olan sənədlərdən aşkarlanan fraqmentlər

*Normativ aktların müəllif hüquqları ilə qorunmadığından təhlil olunan mətnlərin digər növ alınmalardan fərqlənməsi üçün onlar Polşanın Hüquqi Aktları ilə (Wolters Kluwer SA) müqayisə edilir.*

- **Fonu sarı** – Latın əlifbasından olmayan işarələr, bu alınmaları gizlətmək cəhdi ola bilər.

*Həyacan – təhlil edilmiş sənəddə Latın əlifbasından olmayan işarələrin olduğunu göstərən Oxşarlıq Hesabatına daxil edilmiş məlumatdır. Xəbərdarlığın funksiyası işarələrin qanuni şəkildə istifadə edilməsinə elmi rəhbər tərəfindən xüsusi diqqət yetirilməsidir, onların istifadəsi Oxşarlıq Hesabatında əmsal dəyərlərini saxtalaşdırmaq cəhdi ola bilər.*


pragnąc na zawsze zagwarantować prawa obywatelskie, a działaniu instytucji publicznych zapewnić rzetelność i sprawność,

Həyacan siqnalı ilə müəyyənləşdirilmiş sənədlər sənədlər siyahısında qırmızı nida ilə qeyd olunur, xəbərdaqlığın olması barədə statistika isə Oxşarlıq Hesabatında "Həyacan" bölməsində göstərilir.

- **Mavi** - istifadəçi tərəfindən seçilən oxşarlıq mənbəyinin fraqmentləri (açılan siyahıdakı funksiyaları istifadə etməklə).




Yaşıl və qırmızı rəngin iki kölgələri müxtəlif mənbələrdən və ya eyni mənbənin fərqli yerlərində aşkarlanan fraqmentləri ayırmaq üçün istifadə olunur.

İnternet-mənbədə aşkarlanan fraqment əlavə brauzerə göndərilir. Oxşarlıq Hesabatında İnternetdən fraqmentə basdıqda, sistem Sizi bu mənbədə aşkarlanan oxşar fraqmentə yönləndirəcək.

Təhlil edilən sənəddə fraqmentə oxşar mənbəni sistem sarı rənglə göstərəcəkdir.




## VI. Əlavə funksiyalar

Sorğu əsasında Hesabata əlavə funksiyalar daxil edilə bilər:

### Biblioqrafiyanın buraxılması

İşə daxil olunan biblioqrafiyanın təhlilini buraxmaq mümkündür, bunun üçün biblioqrafiya „Biblioqrafiya" sözündən başlanmalıdır və nömrələnmiş formada təqdim edilməlidir.

Polska, Rzeczpospolita Polska (RP) – państwo unitarne w Europie Środkowej, położone między Morzem Bałtyckim na północy a Sudetami i Karpatami na południu, w przeważającej części w dorzeczu Wisły i Odry. Od północy Polska graniczy z Rosją (z jej obwodem kaliningradzkim) i Litwą, od wschodu z Białorusią i Ukrainą, od południa ze Słowacją i Czechami, od zachodu z Niemcami. Większość północnej granicy Polski wyznacza wybrzeże Morza Bałtyckiego. Polska Wyłączna Strefa Ekonomiczna na Bałtyku graniczy ze strefami Danii i Szwecji.

Bibliografia

1. Powierzchnia i ludność w przekroju terytorialnym w 2011 r.., s. 17, 2011. Departament Metodologii, Standardów i Rejestrów. GUS. [dostęp 2015-07-19].
2. Halina (red.) Dmochowska. Warunki naturalne i ochrona środowiska. „Mały Rocznik Statystyczny Polski 2015", s. 17–18, 2011-07-21. Warszawa: Główny Urząd Statystyczny. ISSN 1640-3630. [dostęp 2015-07-19].
3. Główny Urząd Statystyczny. Ludność. Stan i struktura oraz ruch naturalny w przekroju terytorialnym w 2017 r. Stan w dniu 31 XII [1].

Powierzchnia administracyjna Polski wynosi 312 679 km2[b][1], co daje jej 69. miejsce na świecie[e][6] i 9. w Europie. Zamieszkana przez prawie 38,5 miliona ludzi (2017), zajmuje pod względem liczby ludności 36. miejsce na świecie[7], a 6. w Unii Europejskiej. Polska podzielona jest na 16 województw. Jej największym miastem i jednocześnie stolicą jest Warszawa. Inne metropolie to Kraków, Łódź, Wrocław, Poznań, Gdańsk, Szczecin. Największą polską aglomeracją policentryczną jest konurbacja górnośląska.

**Qiymətləndirmə protokolları**

**Domen rezervasiyası**

**Məcburi şifrə dəyişdirilməsi və s.**

**Məlumatlar Bazasına əlavə edilməsi**

- ○ İstifadəçi hesabında funksiyanı deaktiv edin
- ◉ əl ilə
- ○ avtomatik

**Sənədin məlumatlarını istifadəçi tərəfindən redaktə edilməsi**

- ☑ İstifadəçi tərəfindən sənədin məlumatlarının redaktə edilməsi
- ☐ Yarımşöbədə olan bütün sənədlərin görüntüsünün blok edilməsi
- ☐ Müəllim hesabında "elmi rəhbər" sahəsini aktivləşdirin

**Digər**

- ☑ Uyğunluq yoxlanışı
- ☐ Oxşar sənədin sistemdə olub-olmadığını yoxlamaq
- ☐ Hesabatın elmi rəhbərlərə göndərilməsi
- ☐ Yalnız "fayldan" yükləyin
- ☑ Format növünün sayında məhdudiyyət
- ☐ Domen rezervasiyası
- ☐ İlk giriş zamanı qaydaların qəbulu

**Fayl formatlarının sıxılması**

- ☑ txt
- ☑ pdf
- ☑ doc
- ☑ docx
- ☑ odt
- ☑ rtf
- ☑ ppt
- ☑ pptx

## VII. Oxşarlıq Hesabatının təfsiri

Oxşarlıq Hesabatının düzgün şəkildə təhlil edilməsi üçün aşağıdakı addımlar atılmalıdır:

✔ Oxşarlıq əmsalları üçün dəyərlər müəyyənləşdirilməlidir (Oxşarlıq əmsalı 1 50%-dən artıq olarsa və Oxşarlıq əmsalı 2 5%-dən artıq olarsa şübhəli sayılır)

✔ "Oxşar təyin olunmuş ən uzun fraqmentlər"siyahısına diqqət yetirmək lazımdır (200-dən artıq sözdən ibarət olan fraqmentlər şübhəli sayılır, onlar ciddi şəkildə yoxlanılmalıdır;

bu cür fraqmentlər mövcuddursa, "Mətndə göstərin" keçidindən istifadə edilərək tapılmalıdır və onların sitat olub-olmadığı yoxlanılmalıdır);

✓ “Oxşar fraqmentləri olan sənədlər” siyahılarına, xüsusi ilə 2-ci Oxşarlıq əmsalının dəyəri aşan sənədlərə diqqət yetirmək lazımdır (onlar qalın şriftlə işarələnirlər). Bu cür sənədlər, xüsusi ilə siyahının əvvəlində mövcuddursa, “Mətndə göstərin” keçidindən istifadə edərək onların sənəddə səpələnmiş qısa ifadələr (bu zaman onlar təsadüfi alınmalar kimi hesab edilə bilər) və ya yalnız qısa ifadələr ilə ayrılan mətnin uzun fraqmentləri (bu vəziyyət şübhə doğurur) olduğunu yoxlamaq lazımdır.

✓ Hər hansı bir şübhə yarandıqda, 1-3 bəndlərində qeyd olunan oxşarlıq hesabatının funksiyalarını istifadə etməklə yanaşı, sistem tərəfindən digər mətnlərdə aşkar edilmiş faqmentləri nəzərə alaraq sənədin mətni və Oxşarlıq Hesabatı ciddi şəkildə təhlil olunmalıdır.

## VIII. Oxşarlıq Hesabatının təfsiri haqqında əsas məlumat

**Plagiat.pl yoxlanılan sənədin orijinallığını yoxlamağa kömək edən bir vasitədir.** Onun məqsədi məlumatlar bazası və İnternet məzmunu ilə müqayisədə yoxlanılan mətnin mümkün oxşarlıqlarının dəqiq nisbətini müəyyən etməkdir.

Sistem yoxlanılan sənəddə aşkarlanmış alınmaların qanuniliyinin müstəqil qiymətləndirilməsi üçün yuxarıda göstərilən məlumatları təqdim edir. Sistemin məqsədi mətnin müstəqil şəkildə yazılıb-yazılmadığını bəyan etmək deyil, orijinallığına dair fikir yaratmaq üçün lazımi materialları təqdim etməkdir. Bunun üçün, Oxşarlıq Hesabatı hər zaman səlahiyyətli şəxs tərəfindən təhlil olunmalıdır. Xüsusilə, sənəd yalnız Oxşarlıq Əmsallarının faiz dərəcəsi əsasında qiymətləndirilməməlidir. Sənədin məzmununu, sitatların qeyd olunmasını və ya onların istinadların altında göstərilən sənədlərdən olub-olmadığını yoxlamaq lazımdır.

**Plagiat.pl ilk olaraq hansı sənədin -** sistem tərəfindən təhlil edilmiş və ya aşkarlanan və mənbə hesab edilən sənədin **yaradıldığını müəyyən etmir.** Şübhə yarandığı halda istifadəçi yalnız Oxşarlıq Hesabatına əsaslanaraq hansı sənədin orijinal, hansının köçürülmüş olduğunu müəyyən edə bilməz. Bu nəticə yalnız hər iki sənədin ətraflı təhlili nəticəsində əldə edilə bilər.

Oxşarlıqların təhlili üçün istifadə edilən üsullar sayəsində sistem, həmçinin, “Daha əvvəl qeyd etdiyim kimi” və ya “Nəticəyə gələ bilərik” kimi bəzi tez-tez istifadə olunan ifadələri də aşkarlayacaqdır. Lakin bu kimi ifadələrin sayı və onların oxşarlıq əmsalının dəyərinə təsiri 50%-i keçməməlidir.

Şirkətimiz tərəfindən aparılan təhlil göstərir ki, mətnlərdə peşə sahəsindən götürülən çox sayda ifadələr olduqda, oxşarlıq əmsalları əhəmiyyətli dərəcədə artır. Nəticədə Oxşarlıq Hesabatının ətraflı təhlili icazəsiz alınmaların olmadığını göstərsə belə, bəzi sənədlər kifayət qədər yüksək faiz əldə edə bilər, Məhz buna görə biz 2-ci Oxşarlıq Əmsalını təqdim etdik. Oxşarlıq əmsalı 2 təhlil edilən sənədlərdə aşkarlanan alınmaların daha dəqiq faizini müəyyənləşdirir. Onun dəyəri Oxşarlıq əmsalı 1 kimi hesablanır, lakin o müəyyən sözdən ibarət olan ifadələri aşkarlayır və bu universitet tərəfindən müəyyən edilir. Əməkdaşlıq etdiyimiz universitetlərə tövsiyyə edirik ki, Oxşarlıq əmsalı 2 üçün 25 söz müəyyən edilsin. Həmçinin, Oxşarlıq Əmsalı 2 5%-dən çox olan hesabatların ətraflı təhlilini tövsiyyə edirik. Qəbul olunmuş faiz dərəcələrini aşan sənədlər avtomatik olaraq plagiat kimi qəbul edilə bilməz.

## IX. Əlaqə

Suallarınız yarandığı halda Müştəri Xidməti şöbəmizə müraciət edə bilərsiniz:

Telefon.: +994 12 4800679, +99412 4801568

Elektron ünvan: **officebaku@strikeplagiarism.com**